AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

9 YANVAR 2019-cu il ÇƏRŞƏNBƏ № 05 (6332) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Balakən rayonunun Balakən-Qazbinə-İtitala avtomobil yolunun tikintisinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** On səkkiz min nəfər əhalinin yaşadığı 10 yaşayış məntəqəsini birləşdirən Balakən-Qazbinə-İtitala avtomobil yolunun tikintisinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 4,4 milyon (dörd milyon dörd yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 8 yanvar 2019-cu il.**

## Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası keçirilib

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası keçirilib.**

Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə və "Konstitusiya Məhkəməsi haqqında" Qanunun 7.1-ci maddəsinə əsasən, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 2.5-ci maddəsinin şərh edilməsinə dair Bakı Apellyasiya Məhkəməsinin müraciətinə baxılaraq, icraata qəbul olunması haqqında qərardad çıxarılıb.

Müraciətə mahiyyəti üzrə, tərəflərin iştirakı ilə Konstitusiya Məhkəməsi Plenumunun fevralın 13-nə təyin edilmiş iclasında baxılacaq.

**AZƏRTAC**

## Elektron qaydada pensiya təyin olunmuş ilk vətəndaşla görüş

**Pensiya qanunvericiliyinə edilmiş dəyişikliyə uyğun olaraq, bu ildən Azərbaycanda pensiya təyinatının avtomatlaşdırılmış qaydada aparılmasına başlanılıb. Pensiya hüququ yaranmış şəxslərə onların hər hansı bir quruma müraciət etmədən elektron qaydada pensiya təyinatı həyata keçirilir və bu barədə onlara sms vasitəsilə məlumat göndərilir.**

Nazirlikdən verilən məlumata görə, elektron qaydada pensiya təyinatı aparılmış ilk şəxs - Bakının Yasamal rayon sakini Ramazan Camaləddin oğlu Şabanov olub. Bu münasibətlə R.Şabanovu əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev təbrik edib. Nazir Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 5 sentyabr 2018-ci il tarixli Fərmanına əsasən ölkəmizdə pensiya təyinatı sahəsində həyata keçirilmiş mühüm islahat tədbirinin bu sahədə vətəndaş məmnunluğuna imkan yaratdığını vurğulayıb. O, avtomatlaşdırılmış pensiya təyinatı sisteminin ilk iştirakçısı olan R.Şabanovu həm 64 yaşının tamam olması, həm də elə ad günündə elektron qaydada pensiya təyinatı aparılması ilə əlaqədar təbrik edərək, ona xoş arzularını bildirib.

Məlumatda qeyd olunur ki, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dosenti R.Şabanov heç bir sənəd toplamadan, heç bir yerə müraciət etmədən ona elektron qaydada pensiya (490 manat) təyin olunmasından məmnunluğunu ifadə edib. Bildirib ki, ad günündə gözlənilmədən telefonuna gələn sms vasitəsilə ona artıq pensiya təyin olunduğunu öyrənib. Bu onun üçün ad günündə ən xoş sürpriz olub. R.Şabanov dövlət idarəçiliyinin təkmilləşdirilməsinin başlıca istiqamətlərindən birinin də məhz elektron texnologiyaların geniş tətbiqi olduğunu qeyd edib. O, bu istiqamətdə Prezident İlham Əliyevin sosial sahə ilə bağlı islahatlar proqramına uyğun aparılan işlərin əhəmiyyətini vurğulayıb, vətəndaşlarda məmnunluq yaradan bu islahat tədbirinə görə dövlətimizin başçısına öz minnətdarlığını ifadə edib.

Cari ilin əvvəlindən pensiya hüququ yaranan artıq 560 şəxsə avtomatlaşdırılmış qaydada pensiya təyinatı aparılıb. Onu da qeyd edək ki, pensiya qanunvericiliyinə əsasən, hazırda pensiya hüququ qazanmaq üçün yaş həddi kişilər üçün 64, qadınlar üçün 61 yaşdır. Ölkə üzrə gözlənilən ömür uzunluğunun kişilər üçün 73,1 yaş, qadınlar üçün 77,8 yaş olduğunu nəzər alsaq, gözlənilən pensiya ödənişinin orta müddəti 13 il (o cümlədən kişilər üçün 9,1 il, qadınlar üçün isə 16,8 il) təşkil edir.

**M.KAMAL,**
**"Respublika".**

# Azərbaycan dünyada böyük hörmətə və yüksək beynəlxalq nüfuza malik ölkədir

***Dövlət başçısı deyib ki, biz bütün prinsipial məsələlərlə bağlı öz mövqeyimizi ortaya qoyuruq, ölkəmizin milli maraqlarını layiqincə yerinə yetiririk və bundan sonra da bu yolla gedəcəyik***

**Azərbaycan apardığı uğurlu siyasəti sayəsində dünya iqtisadiyyatına uğurla inteqrasiya olunur. Bu proses müasir tələblərə uyğun və yüksək templidir. Dünya iqtisadiyyatında xarici ticarət əməliyyatları və investisiya qoyuluşu hazırkı beynəlxalq iqtisadi prosesdə həyati əhəmiyyətə malikdir. Ölkəmizin bu istiqamətdə yürütdüyü siyasət müvəffəqiyyətli yekunlar verib və bu proses davamlı xarakterlidir. Beynəlxalq proseslərə diqqət etdikdə aydın görünür ki, bir sıra hallarda dövlətlərin əsasən iqtisadi əlaqələri qarşılıqlı maraqları təmin etmədikdə müxtəlif xarakterli siyasi, sosial və hətta hərbi toqquşmalarla nəticələnir.**

Dünya siyasətində baş verən proseslərlə yaxından tanış olduqda aydın olur ki, ən doğru yol balanslaşdırılmış siyasət və beynəlxalq iqtisadiyyata milli mənafeni nəzərə almaqla, qarşılıqlı maraqları ödəməklə inteqrasiya yoludur. Bu yol ən pozitiv və perspekltivli nəticələrə istiqamətlənib. Davam edən qloballaşma prosesi bütün ümumdünya proseslərinə güclü təsir etməkdədir. Təbii ki, dünya çapında hər bir dövlətin müxtəlif sosial-iqtisadi, siyasi səviyyəsi vardır. Ölkələr bu baxımdan üç qrupa bölünür: inkişaf etmiş, inkişaf etməkdə olan və geridə qalmış, yaxud kasıb dövlətlər. Təbii ki, bu transmilli prosesdə inkişaf etmiş dövlətdən iqtisadi və siyasi asılılığa düşməmək, milli-mədəni və şüur baxımından assimilyasiyaya uğramamaq, əriməmək, tabe olmamaq, bir xalq, millət kimi tarixin səhifəsindən silinməmək üçün ümummilli mənafelərə uyğun, müstəqil iqtisadi, siyasi kursa malik olmaq həyati zərurət kimi meydana çıxır. Azərbaycan rəhbərliyi öz düşünülmüş siyasəti ilə hazırda davam edən qlobal iqtisadi, siyasi, sosial böhran şəraitində sosial-iqtisadi inkişafında mühüm nailiyyətlər qazanıb, milli mənafeyə müvafiq strategiyaya uyğun səmərəli beynəlxalq əməkdaşlıq xəttini bərqərar edib, günü-gündən də bu mövqeni möhkəmləndirir. Azərbaycan Prezidenti İlham Əliyevin Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqində ölkə iqtisadiyyatının dayanıqlı tərəqqiyə nail olduğu barədə deyib: "Azərbaycan iqtisadiyyatı istənilən dövrdə öz dayanıqlılığını nümayiş etdirir. Hətta bir neçə il bundan əvvəl dünyanı bürümüş maliyyə-iqtisadi böhranının ikinci dalğası dövründə də Azərbaycan iqtisadiyyatı dayanıqlılığını təmin etmişdir". Beləliklə, ölkəmiz dünya iqtisadiyyatında uğurla təmsil olunur və beynəlxalq əlaqələrdə ümummilli məqsəd və mənafeləri də hər bir addımda ön mövqedədir. Həmin əlaqələr həm də qarşı tərəfin də mənafeyinə uyğun olduğu və maraqları ödəndiyi üçün dövlətlərarası əməkdaşlığın sərhədləri daim genişlənməkdədir. Belə ki, 2003-cü ildə ölkəmiz 124 ölkə ilə ticarət əməliyyatı aparırdısa 2018-ci ilin yanvar-avqust aylarında Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri dünyanın 174 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmiş, 102 ölkəyə məhsul ixrac olunmuş, 166 ölkədən idxal olunmuşdur. Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla 2018-ci ilin yanvar-avqust aylarında ölkənin xarici ticarət dövriyyəsi 20275,7 milyon ABŞ dolları, o cümlədən ixracın dəyəri 13412,2 milyon dollar, idxalın dəyəri 6863,5 milyon dollar təşkil etmiş, nəticədə 6548,7 milyon dollarlıq müsbət ticarət saldosu yaranmışdır. 2017-ci ilin yanvar-avqust ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 34,8 faiz, o cümlədən ixrac 37,7 faiz, idxal 29,5 faiz artmışdır. Real ifadədə dövriyyə 0,2 faiz, o cümlədən ixrac 1,0 faiz artmış, idxal isə 1,2 faiz azalmışdır. Real iqtisadiyyatın inkişaf tempi qorunur. Nəticədə 2018-ci ilin yanvar-avqust aylarında 1093,7 milyon dollar dəyərində qeyri-neft məhsulları ixrac edilmişdir ki, bu da 2017-ci ilin yanvar-avqust aylarına nisbətən faktiki qiymətlərlə 13,5 faiz, real ifadədə isə 4,0 faiz çoxdur.

Dövlət başçısının Sərəncamı ilə həyat keçirilən "2015-2020-ci illərdə sənayenin inkişafına dair Dövlət Proqramı" uğurla icra olunur. Beləliklə də dəqiq siyasi-iqtisadi və maliyyə mexanizmlərilə reallaşdırılan islahatlar, yaradılmış siyasi və makroiqtisadi sabitlik, güclü iqtisadi potensial, o cümlədən iqtisadiyyatın diversifikasiyası, neft amilindən asılılığın azaldılması, biznes mühitinin təkmilləşdirilməsi, sahibkarlığın inkişaf etdirilməsi bugünkü dinamik inkişafda əsas amillərdir. Məsələn, Bakı-Tbilisi-Qars dəmir yolu, Ələt beynəlxalq ticarət limanı kimi transmilli nəqliyyatın infrastrukturlarının innovativ inkişafı iqtisadi yüksəlişdə mühüm amillərdəndir. Bu müasir səviyyə digər ölkələrdə də sosial-iqtisadi inkişafa güclü zəmin yaradan faktordur. Hazırda fəaliyyətdə olan Bakı-Tbilisi-Qars dəmir yolu, Şimal-Cənub nəqliyyat dəhlizi, Xəzər dəniz yolu dünyanın böyük əhəmiyyətə malik qovşaqları sırasındadır.

Digər bir misal, Azərbaycanda müasir gəmiçilik zavodu tikilmişdir. Bu zavod istənilən məqsədli gəmi istehsal edə bilir: tanker, bərə, sərnişin gəmisi, neft sahəsinə xidmət edən gəmilər, hərbi gəmilər və s. Ölkə rəhbəri Xəzər gəmiçiliyinin beynəlxalq səviyyəyə çatması üçün bütün lazımi addımları atır, bu istiqamətdə operativ tədbirlər görülür, islahatlar aparılır, yeni gəmilər alınır. Ən önəmlisi ondan ibarətdir ki, Azərbaycanın gəmiqayırma zavodunda gəmilər artıq istehsal olunur, yeni sfarişlər alınır. Həm neft-qaz əməliyyatları, həm də hərbi məqsədlər üçün gəmilər tikilir. Dövlət rəhbərliyi çalışır ki, Azərbaycana lazım olan bütün növ gəmilər - tankerlər, yük gəmiləri və s. Bakıda istehsal olunsun. Sənayeləşmə siyasətinin əsas hədəfləri zəruri məhsulların ölkəmizdə istehsal olunması və ixracdan asılılığın aradan qaldırılmasıdır. Göründüyü kimi, ölkəmizdə bu siyasətin reallaşması artıq özünü doğruldub. Belə ki, sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2018-ci ilin yanvar-sentyabr aylarında 35,6 milyard manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,0 faiz çox sənaye məhsulu istehsal edilmişdir. Sənayenin qeyri-neft sektorunda məhsul istehsalı 10,8 faiz, neft sektorunda isə 0,7 faiz artmışdır. Dövlət başçısı yerli istehsalın təşkilinə dövlətin xüsusi önəm verdiyi barədə deyib: "...ölkəmizin uğurlu inkişafı üçün yerli istehsalın artması ən önəmli amillərdən biridir. Dövlətin dəstəyi ilə bu istiqamətdə bir çox layihələr icra edilir. O cümlədən dövlətin birbaşa maliyyə dəstəyi ilə böyük, nəhəng müəssisələr yaradılır". Göründüyü kimi, müstəqilliyinin 27-ci ilini yaşayan Azərbaycan öz iqtisadiyyatını qısa müddətdə dirçəltmiş, çoxşaxəliliyə, hərtərəfli, davamlı inkişafa nail olmuş, hələ də fəsadları aradan qalxmayan beynəlxalq maliyyə və iqtisadi böhrandan zərər çəkməmiş, əksinə geniş, davamlı tərəqqi yoluna çıxmış, ölkədə müasir istehsala nail olunması rəqabətədavamlı iqtisadiyyata səbəb olmuşdur. Mövcud iqtisadi potensialın aşkara çıxarılaraq dövriyyəyə cəlb edilməsi isə dövlətin iqtisadi qüdrətini daim yüksəldir.

Ölkə rəhbərliyi iqtisadiyyatın rəqabətədavamlılığını təmin etmək üçün onun bütün sahələrinə sərmayə yönəldilməsini diqqət mərkəzində saxlayır və ayrılan vəsaitləri daim artırır. 2018-ci ilin yanvar-sentyabr aylarında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 10148,7 milyon manat və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 11,5 faiz az vəsait yönəldilmişdir. Bu azalma neft sektoruna yatırılmış investisiyaların azalması ilə bağlı olmuş, qeyri-neft sektoruna yönəldilmiş vəsaitin həcmi isə 20,2 faiz, o cümlədən qeyri-neft sənayesinə qoyulmuş investisiyalar 24,4 faiz artmışdır. Ümumi sərmayənin 69,4 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf edilmiş, istifadə olunmuş vəsaitin 69,3 faizi məhsul istehsalı obyektlərinin, 22,4 faizi xidmət sahələri üzrə obyektlərin, 8,3 faizi isə ümumi sahəsi 1503,6 min kvadratmetr olan yaşayış evlərinin tikintisinin payına düşmüşdür. Daxili mənbələrdən əsas kapitala yönəldilmiş vəsait ümumi sərmayənin 60,7 faizini təşkil etmişdir.

Əsas kapitala yönəldilmiş sərmayənin ümumi dəyərində müəssisə və təşkilatların vəsaitləri 51,1 faiz, bank kreditləri 13,6 faiz, büdcə vəsaitləri 25,7 faiz, əhalinin şəxsi vəsaitləri 7,0 faiz, büdcədənkənar fondların vəsaitləri 1,8 faiz, sair vəsaitlər isə 0,8 faiz təşkil etmişdir. Bütün ölkə üzrə yeni, real iqtisadiyyata dair obyektlərin tikintisi və istismara verilməsi sürətini azaltmır. Beləliklə, 2018-ci ilin yanvar-sentyabr aylarında Naxçıvan Muxtar Respublikasında Təmizləyici Qurğular Kompleksi, Naxçıvan Müəllimlər İnstitutunun yeni binası, Bakı şəhərində Yüksək gərginlikli avadanlıqlar zavodu, 110/35/10 kilovoltluq "Yasamal-1" və "Qobu", 35/10-6 kilovoltluq 120 saylı elektrik yarımstansiyaları, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksi, Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin yeni binası, Bakı Şəhər Statistika İdarəsinin inzibati binası, Bona Dea Beynəlxalq Hospitalı, "Dinamo" oteli, Respublika Narkoloji Mərkəzi, Abşeron Logistika Mərkəzi, Bakı Kitab Mərkəzi, Bakı Olimpiya Stadionundan Heydər Əliyev prospektinə keçid və müxtəlif səviyyəli yol qovşağı, Sumqayıt şəhərində Sumqayıt Kimya Sənaye Parkında polipropilen zavodu, Mingəçevir şəhərində Mingəçevir Sənaye Parkında "Mingəçevir Tekstil" MMC-nin iplik istehsalı üzrə iki müəssisəsi, Naftalan şəhərində Naftalan şəhər Mərkəzi Xəstəxanası, Goranboy rayonunda "Region Aqropark", Şəmkir-Samux-Goranboy magistral suvarma kanalının ikinci növbəsi, 110/35/10 kilovoltluq "Dəliməmmədli" elektrik yarımstansiyası, Dəliməmmədli-Quşçular-Fəxralı-Qurbanzadə-Alpout avtomobil yolu, Xaçmaz rayonunda "Azərxalça" ASC-nin Xaçmaz filialı, İsmayıllı rayonunda Heyvandarlıq Kompleksi, Aqropark, "İsmayıllı" elektrik yarımstansiyası, "Azərxalça" ASC-nin İsmayıllı filialı, Muğanlı-İsmayıllı-Mingə-Keyvəndi-Şəbiyan-Bəhliyan avtomobil yolu, Neftçala rayonunda Neftçala Sənaye Məhəlləsində "Xəzər" avtomobil zavodu, Şamaxı rayonunda Üzümçülük və şərabçılıq kompleksi, Dəmirçi Arxeologiya Muzeyi, Dəmirçi-Lahıc avtomobil yolu, Biləsuvar rayonunda Zəhmətabad-Bəydili-Xırmandalı-Əliabad avtomobil yolu, Masallı rayonunda Sənaye məhəlləsi, Çəltik emalı müəssisəsi, bunlardan əlavə Naxçıvan Muxtar Respublikasında bir növbədə gəlişlərin sayı 15 nəfər olan ambulatoriya-poliklinika müəssisəsi, 1444 şagird yerlik 4, Bakı və Şəki şəhərlərində, Abşeron, Balakən, Şamaxı rayonlarında 5816 şagird yerlik 5 ümumtəhsil məktəb binası və s. obyektlər istifadəyə verilmişdir. Göründüyü kimi, ölkədə zəruri siyasi və iqtisadi islahatlar aparılması, layihələrin icrası davamlıdır. Azərbaycan iqtisadiyyatına 2003-2018-ci illər ərzində 250 milyard dollar həcmində investisiya yatırılıb, onun yarısı xarici sərmayədir. Ölkə rəhbərliyi tərəfindən bu prosesin operativ surətdə həyata keçirilməsi üçün Azərbaycanın qanunvericilik bazası ölkədə investisiya qoyuluşuna münbit siyasi və hüquqi şərait yaradıb. Belə əlverişli mühit dünya ölkələrində və ən nüfuzlu beynəlxalq təşkilatlarda Azərbaycana marağı, etibarı daim artırır və bu zəmində ölkənin əlaqələri mütəmadi olaraq genişlənir. Ölkəmiz Avropa və Asiyanın sərhədində, iki nəhəng sivilizasiyanın qovuşuğunda yerləşdiyi üçün çox mühüm strateji əhəmiyyətə malikdir, bu məkan iki qitənin siyasi, iqtisadi və sosial sahələrinin təmas və biri digərinə təsir etdiyi nöqtədir. Dövlətin reallaşdırdığı strateji kursda bu amillər çox böyük uğurla nəzərə alınır və səmərəli istifadə edilir. Azərbaycanın davamlı sosial-iqtisadi uğurları və rəqabətədavamlı ümumi daxili məhsulları sayəsində artıq investisiya və sosial proqramları da daxili imkanlar hesabına icra edilir. Bu gün aşkardır ki, müasir şəraitdə heç bir dövlət beynəlxalq iqtisadi, ticari əlaqələr qurmadan inkişaf edə bilməz. Azərbaycan dövlətinin yürütdüyü xarici siyasət şəffafdır, açıqdır, səmimidir, qarşılıqlı etimada əsaslanır və maraqları təmin edir. Bu isə dünyada sülhün, sabitliyin qorunmasına və sosial-iqtisadi inkişafa mühüm töhfədir. Dövlət başçısı hazırkı gərgin beynəlxalq şəraitdə Azərbaycanın yürütdüyü siyasətin nəticələri və ölkənin maraqlarına uyğunluğu barədə deyib: "Regionda baş verən hadisələr, bizim təşəbbüsümüzlə icra edilən nəhəng enerji, nəqliyyat layihələri, digər sahələrdə apardığımız işlər siyasi çəkimizi böyük dərəcədə artırıb. Bu gün Azərbaycan çox dəyərli, böyük hörmətə, yüksək beynəlxalq nüfuza malik olan bir ölkədir. Təkcə bizim yaratdığımız imkanlara görə yox, eyni zamanda, bəlkə də, ilk növbədə, ona görə ki, bizim sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur. Biz prinsipial siyasət aparırıq. Bütün prinsipial məsələlərlə bağlı öz mövqeyimizi ortaya qoyuruq, ölkəmizin milli maraqlarını layiqincə yerinə yetiririk və bundan sonra da bu yolla gedəcəyik".



**Ataş CƏBRAYILOV,**
**"Respublika".**

# Məhkəmə fəaliyyətinə dair qanunvericiliyin yeni müddəaları öyrənilir

**Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə ardıcıl tədbirlər davam etdirilir, məhkəmə sistemi müasirləşdirilir, vətəndaşların məhkəmələrə əlçatanlığı asanlaşdırılır, işlərə daha çevik və keyfiyyətlə baxılması, məhkəmələrdə aşkarlığın artırılması və elektron məhkəmə sisteminin tətbiqinin genişləndirilməsi ilə bağlı mühüm işlər görülür.**



Dövlətimizin başçısının qanunvericilik təşəbbüsü ilə 2018-ci il dekabrın 28-də qəbul olunmuş qanunlarla Mülki Prosessual Məcəllədə və "Məhkəmələr və hakimlər haqqında" Qanunda edilmiş əsaslı dəyişikliklər məhkəmə fəaliyyətinin təkmilləşdirilməsinə və müasirləşdirilməsinə, məhkəmə icraatının elektron qaydada aparılmasına, operativliyin və şəffaflığın təmin olunmasına, vətəndaşların məhkəmələrə müraciət imkanlarının genişləndirilməsinə xidmət edir.

Ədliyyə naziri Fikrət Məmmədovun sədrliyi ilə keçirilmiş müşavirədə yeni qanunvericiliyin icrasının təşkili üzrə tədbirlər təxirəsalınmadan müzakirə olunaraq məhkəmə fəaliyyətinin müasir tələblər səviyyəsində daha səmərəli qurulması qeyd edilib. Bununla əlaqədar xüsusi işçi qrup yaradılıb, tədbirlər planı hazırlanıb, silsilə təlimlərin və digər maarifləndirmə tədbirlərinin keçirilməsi müəyyən olunub.

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirlər planına uyğun olaraq, yanvarın 8-də Ədliyyə Nazirliyində qanunvericiliyin yeni müddəalarının öyrənilməsi və düzgün tətbiq edilməsi məqsədilə hakimlər üçün təlim keçirilib.

Təlimə respublikanın bütün apellyasiya məhkəmələrinin və aidiyyəti kollegiyalarının, inzibati-iqtisadi və paytaxtın rayon məhkəmələrinin sədrləri cəlb olunub. Tədbirdə nazirliyin, o cümlədən Ədliyyə Akademiyasının, habelə Məhkəmə-Hüquq Şurasının məsul işçiləri də iştirak ediblər.

Tədbirin açılışında çıxış edən Akademiyanın rəhbəri Elçin Xələfov qanunvericilikdəki yeniliklərdən bəhs edərək, onların məhkəmə fəaliyyətinin "Elektron məhkəmə" informasiya sistemi tətbiq olunmaqla səmərəliliyinin artırılmasına, məhkəmə prosesi iştirakçılarının hüquq və vəzifələrinin daha asan və operativ həyata keçirilməsinə xidmət etdiyini vurğulayıb, qanunun düzgün tətbiqində hazırkı təlimin əhəmiyyətini diqqətə çatdırıb.

Ali və Bakı apellyasiya məhkəmələrinin təlimçi-hakimləri tərəfindən yeni qanunların mahiyyəti, bununla bağlı hakimlərin üzərinə düşən vəzifələr dinləyicilərə aşılanıb. Bildirilib ki, dəyişikliklərə əsasən mülki işlər və iqtisadi mübahisələr üzrə məhkəmə icraatının elektron qaydada aparılması, bu zaman proses iştirakçılarına məhkəmə sənədlərinin "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə (elektron poçt, SMS, elektron kabinet və s.) dərhal çatdırılması, dövlət rüsumlarının sadələşdirilmiş qaydada elektron ödəniş sistemi vasitəsilə ödənilməsi nəzərdə tutulur. Eyni zamanda, yeni qanunvericiliklə vətəndaşların mənafelərinin təmin edilməsi, ədalət mühakiməsinin tezləşdirilməsi məqsədilə bəzi kateqoriya işlərə baxılmasının və qərarların daha tez qüvvəyə minməsinin sadələşdirilmiş məhkəmə prosedurları, habelə məhkəmə statistikasının elektronlaşdırılması və digər mühüm yeniliklərin tətbiqi təsbit olunub.

Təlimdə qanunvericiliyin yeni müddəaları dərindən təhlil olunaraq praktikada yaranacaq kazusların həlli yolları müzakirə edilib, faydalı fikir mübadiləsi aparılıb, hakimləri maraqlandıran suallara aydınlıq gətirilib.

Sonra yeni qanunların düzgün tətbiqi ilə bağlı prezentasiya keçirilərək məhkəmə fəaliyyətinin səmərəliliyinin artırılmasında "Elektron məhkəmə" informasiya sisteminin imkanları, o cümlədən vahid məhkəmə portalı, vətəndaşların şəxsi kabineti, dövlət rüsumlarının elektron ödəniş sistemi, elektron icra sistemi və s. nümayiş etdirilib.

Dinləyicilər üçün qanunun düzgün tətbiqində böyük əhəmiyyət kəsb edən belə təlimlərin hər bir bölgədə bütün hakimlərin iştirakı ilə keçirilməsi nəzərdə tutulur.

**AZƏRTAC**

# Dövlət Komitəsində vətəndaşların növbəti qəbulu keçirilib

**Yanvarın 8-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində vətəndaşlarla növbəti görüş olub. Bu barədə AZƏRTAC-a Dövlət Komitəsindən məlumat verilib.**



Dövlət Komitəsinin sədri Rövşən Rzayev, sədr müavinləri, aparat rəhbəri, şöbə müdirləri və departament direktorları vətəndaşları qəbul ediblər.

Qəbula gələnlərin əksəriyyəti, həmişəki kimi, əsasən məcburi köçkün vətəndaşlar olublar. Onlar mənzil-məişət şəraitinin yaxşılaşdırılması, məcburi köçkün statusunun verilməsi, vahid aylıq müavinətin təyin edilməsi, məşğulluq və digər məsələlərlə bağlı müraciətlər ediblər.

Vətəndaşlara bildirilib ki, məcburi köçkünlərin problemləri sosial məsələlər arasında ön plandadır. Prezident İlham Əliyev bu kateqoriyadan olan vətəndaşların normal şəraitlə təmin edilməsini mühüm vəzifə kimi qarşıya qoyub. İndiyədək məcburi köçkünlər üçün yüzdən çox qəsəbə salınıb. Bu məqsədlə yeni yaşayış komplekslərinin tikintisi davam etdirilir. Həyata keçirilən tədbirlər onu göstərir ki, heç bir məcburi köçkün ailəsi dövlətin diqqət və qayğısından kənarda qalmayacaq.

Birinci vitse-prezident xanım Mehriban Əliyevanın Bakı və Sumqayıtda ən ağır şəraitdə, qəzalı vəziyyətdə olan bina və tikililərdə yaşayan məcburi köçkünlərin yeni mənzillərə köçürülməsi ilə bağlı verdiyi tapşırığın icrası uğurla davam etdirilir. Yeni ildə də məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, maddi rifah halının yüksəldilməsi üçün dövlət büdcəsindən vəsait ayrılıb.

Məcburi köçkünlərin müraciətlərində qaldırılan məsələlərin həlli ilə bağlı Dövlət Komitəsinin müvafiq strukturlarına konkret tapşırıqlar verilib.

**AZƏRTAC**

# Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi Hacıqabulda vətəndaşları qəbul edəcək

**Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi Hacıqabulda vətəndaşları qəbul edəcək.**

Qurumdan AZƏRTAC-a bildiriblər ki, Xidmət rəisi, general-leytenant Arzu Rəhimov yanvarın 17-də saat 10:00-da Hacıqabul rayonunda Şirvan, Kürdəmir, Saatlı, Sabirabad, Salyan, Hacıqabul, Neftçala şəhər və rayonlarından olan vətəndaşların qəbulunu həyata keçirəcək.

Qəbula yazılmaq istəyən vətəndaşların yanvarın 15-dək Xidmətin adları qeyd olunan şəhər və rayonlardakı şöbə və bölmələrinə müraciət edərək qeydiyyatdan keçməlidirlər.

**AZƏRTAC**

# AZAL Almatıya birbaşa aviareyslər yerinə yetirəcək

**"Azərbaycan Hava Yolları" (AZAL) cari ilin 2 aprel tarixindən etibarən Bakı-Almatı-Bakı marşrutu üzrə müntəzəm uçuşlara başlayacaq.**



AZAL-ın reysləri həftədə iki dəfə çərşənbə axşamı və şənbə günləri, ekonom sinif, komfort-klub və biznes sinif konfiqurasiyalı Airbus A319 tipli təyyarə ilə Heydər Əliyev Beynəlxalq Aeroportunun 1-ci Terminalından həyata keçiriləcək.

Almatı Qazaxıstanın "cənub paytaxtı" adlanır. Şəhər cənub paytaxtının bir növ "vizit kartı" olan inanılmaz gözəl qarlı dağlar - Alatau dağları platosunda yerləşir. Eyni zamanda şəhərin özü geniş yaşıllıqlardan ibarətdir. Almatı gözəl istirahət və əyləncə üçün zəruri olan hər şeyə malikdir.

Biletləri AZAL-ın kassalarında, aviaşirkətin rəsmi agentliklərində və www.azal.az saytında təxsis etmək və əldə etmək mümkündür. Balların avtomatik hesablanması məqsədilə, aviabilet alarkən müvafiq qrafada AZAL Miles proqramında iştirakçı nömrənizi qeyd etməlisiniz.

AZAL Miles bonus proqramı barədə ətraflı məlumat aviaşirkətin www.miles.azal.az saytında təqdim edilmişdir. Proqram iştirakçısı olmayan şəxslərə http://ffj2.loyaltyplus.aero/j2loyalty/register.jsf?lang=az keçidi vasitəsilə qeydiyyatdan keçməyi təklif edirik.

Aviabiletlərin alınması ilə əlaqədar və ətraflı məlumat üçün aşağıdakı telefon nömrələri ilə müraciət edilməlidir:

(+99412) 598-88-80 (Azərbaycandan zənglər üçün qısa nömrə: *8880)

Elektron poçt:callcenter@azal.az

WhatsApp: (+99450) 437-40-82 (yalnız yazılı müraciətlər üçün, bu nömrəyə zənglər qəbul edilmir)

AZAL Miles bonus proqramına dair sualları azalmiles@azal.az ünvanına, yaxud www.azal.az saytında doldurulan əlaqə forması vasitəsilə göndərə bilərsiniz.

**"Azərbaycan Hava Yolları" QSC-nin mətbuat xidməti.**

# İtaliyanın "L'Opinione" qəzeti Ermənistan-Azərbaycan münaqişəsindən yazır

**İtaliyanın aparıcı "L'Opinione" qəzetində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən bəhs edən məqalə dərc olunub.**

AZƏRTAC xəbər verir ki, məqalədə ötən ilin dekabr ayında Bakıda "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin növbəti qurultayının keçirildiyi, İctimai Birliyə yeni sədrin seçildiyi xatırladılır.

Müəllif məqalədə İctimai Birliyin yeni sədri Tural Gəncəliyevin fikirlərinə yer verir. Sədr bildirib ki, Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan tərəfindən kriminal xunta rejimi yaradılıb. Orada yaşayan erməni əhali, yəni, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin erməni icması qondarma xunta rejiminin total nəzarəti altında saxlanılır. Münaqişənin həlli ilə bağlı danışıqlar prosesində Ermənistan və Azərbaycan münaqişə tərəfləri,




Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin erməni və azərbaycanlı icmaları isə maraqlı tərəflər kimi müəyyən olunublar. Dağlıq Qarabağın azərbaycanlı icmasının legitim və ayrılmaz hüquqları bərpa olunmadan, o cümlədən onların öz doğma torpaqlarına qayıtması təmin edilmədən münaqişənin ədalətli və davamlı həlli mümkün deyil. Bərabərhüquqlu tərəflər olan bu icmalar arasında Azərbaycanın sərhədləri daxilində sülh şəraitində gələcək birgəyaşayış təşviq edilməlidir.

Məqalədə Ermənistan-Azərbaycan münaqişəsinin tarixi barədə ətraflı məlumat verilir. Bildirilir ki, Ermənistan hərbi qüvvələri Dağlıq Qarabağ bölgəsi və 7 ətraf rayon daxil olmaqla Azərbaycan ərazisinin 20 faizini işğal edib. Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını, azərbaycanlı məcburi köçkünlərin öz doğma yurdlarına qayıtmasını tələb edən beynəlxalq təşkilatların çoxsaylı qərar və qətnamələri, o cümlədən BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri yerinə yetirilmir.

Qeyd edilib ki, etnik təmizləmə nəticəsində bölgəni tərk etmək məcburiyyətində qalmış azərbaycanlı icma Dağlıq Qarabağın gələcək hüquqi statusunun müəyyənləşdirilməsində iştirak etmək kimi qanuni hüquqa malikdir. Bu hüququ tanımadan münaqişənin ədalətli və hərtərəfli həllini təmin etmək mümkün deyil. Danışıqlarda Ermənistan həmişə Dağlıq Qarabağ ermənilərinin hüquqlarını vurğulayır. Bölgənin erməni icmasının hüquqları azərbaycanlı icmanın hüquqları hesabına təmin edilə bilməz. Bir insanın, bir etnik qrupun hüquqları digər insanın, digər etnik qrupun hüquqlarına xələl gətirilməklə təmin oluna bilməz. Bu, beynəlxalq hüququn və insan haqlarının təməlidir.

**AZƏRTAC**

# 2018-ci il ərzində "Azərbaycan Uşaq Qaynar Xətt" xidmətinə 3581 müraciət daxil olub

**2010-cu ildə "Azercell Telekom" MMC-nin dəstəyi ilə uşaqların müdafiəsi və hüquqlarının qorunması üçün yaradılan "Uşaq Qaynar Xətt" xidməti ötən ilin yekunları ilə bağlı hesabatını açıqlayıb. Qeyd edək ki, 2018-ci il ərzində quruma 3581 müraciət daxil olub. Onlardan 1909-u təhsil, 426-sı psixoloji, 235-i sosial, 497-si hüquqi, 177-si səhiyyə, 337-si isə digər sahələrdə yaranan sualları əhatə edib. Daxil olan müraciətlərin 1432-si şəhərdaxili, 1995-i mobil telefon, 54-ü isə mobil sms-lə qeydə alınıb.**




Zənglər üzrə aparılan təhlillərdən çıxan nəticələrə əsasən uşaqlarda baş verən narahatlıqların, psixoloji problemlərin əsas səbəbi valideynlərin bu istiqamətdə maariflənməsinin zəif olmasıdır. Xüsusilə də uşaqların məktəb həyatının başladığı dövrlərdə onlarda izlənilən həyəcan, özünəqapanıqlıq, qorxu, aqressiya valideynlər tərəfindən böyük narahatlıq və təlaşla qarşılanır, uşaqlara qarşı məhz bu səbəbdən kobud davranılır. Eyni zamanda müraciət edənlər arasında şəxsiyyətlərarası konfliktlərdən əziyyət çəkən yeniyetmələr də üstünlük təşkil edir. Problemin səbəbi isə uşaqların valideyn və yaşıdları ilə münasibətdə yaşadıqları fikir ayrılıqları və buna qarşı özünümüdafiə mexanizmi kimi istifadə etdikləri aqressiya görünür.

Qeyd edək ki, "Uşaq Qaynar Xətt" xidmətinin əsas iş prinsipi - məxfilikdir. "Uşaq Qaynar Xətti" xidmətinə daxil olan bütün məlumat məxfi saxlanılır.

"Azərbaycan Uşaq Qaynar Xətt" xidmətinin əsas məqsədi problemlə üzləşmiş hər bir uşağa sosial xidmət, psixoloji və hüquqi yardım, emosional dəstək, onun qarşılaşdığı çətinliklərin həllinə dair məsləhətlər vermək, ehtiyac olduğu zaman müraciətlərin digər müvafiq xidmətlərə yönləndirilməsini təmin etmək və təxirəsalınmaz kömək göstərməkdir.

Təklif edilən xidmət dövlət uşaq müəssisələrində olan, küçədə yaşayan və işləyən, istismara və zorakılığa məruz qalan, psixoloji və emosional problemlərlə üzləşən, fiziki və əqli imkanları məhdud olan, habelə sosial çətinliklər yaşayan ailələrdən olan, hüquqları pozulmuş, qanunla münaqişədə olan, xüsusi qayğıya və müdafiəyə ehtiyacı olan hər bir uşağın probleminin həll edilməsi üçün nəzərdə tutulub. Onu da qeyd edək ki, fəaliyyət göstərdiyi 8 il ərzində "Azərbaycan Uşaq Qaynar Xətt" xidmətinə 36 289 müraciət daxil olub. ■

*"UNEC Ekspert":*

# Rezerv valyuta, beynəlxalq ticarətdə milli valyuta

**"UNEC Ekspert" jurnalının 6-cı sayı işıq üzü görüb. İldə iki dəfə nəşr olunan jurnal iqtisadiyyatın ən aktual mövzularına toxunaraq, geniş oxucu auditoriyası qazanıb.**



Jurnalın yeni sayında rezerv valyutalar, pul köçürmələri, beynəlxalq ticarətdə milli valyuta mövzularına həsr olunan məqalələr yer alıb. Oxucular rezerv valyutalarla bağlı "dünya rezerv valyutalarının sayı artırılmalıdırmı?", FES-in çap maşını və yaxud qızıl standartlar, "dollar rezerv valyuta statusunu itirirmi?" və bu istiqamətdə digər suallara cavab tapa biləcəklər. Pul köçürmələri ilə maraqlananlar isə müasir dövrdə internet bank sistemi xidmətləri, ölkədə elektron pulların istifadəsi və tənzimlənməsi problemləri, eyni zamanda Azərbaycanda beynəlxalq pul köçürmələri bazarının mövcud vəziyyəti və pespektivləri ilə tanış olacaqlar. Jurnalda beynəlxalq ticarətdə milli valyuta ilə bağlı UNEC-in ekspertlərinin dollarlaşma, avrolaşma və kiçik ölkələrin riskləri, neft ixrac edən ölkələrin dollardan asılılıq problemi, neftin milli valyuta ilə satılması perspektivləri, eləcə də digər aktual məsələlərlə bağlı araşdırmaları dərc olunub. ■

**08.01.2019-cu il tarixə pambıq tədarükünə dair operativ məlumat**

| Rayonlar | Əkin sahəsi, hektar | | | 08 yanvar tarixə pambıq qəbulu məntəqələrinə təhvil verilmişdir, ton | | |
|---|---|---|---|---|---|---|
| | 2018-ci il | 2017-ci il | 2018-ci il 2017-ci ilə nisbətən | 2019-cu il | 2018-ci il | 2019-cu il 2018-ci ilə nisbətən |
| **Respublika üzrə cəmi** | **132512,0** | **136413,2** | **97,1%** | **232231,29** | **207083,07** | **112,1%** |
| Ağcabədi rayonu | 10000,0 | 9550,0 | 104,7% | 23211,79 | 20428,06 | 113,6% |
| Ağdam rayonu | 3100,0 | 3005,0 | 103,2% | 5807,00 | 6178,41 | 94,0% |
| Ağdaş rayonu | 3185,0 | 3000,0 | 106,2% | 3746,83 | 3697,34 | 101,3% |
| Ağsu rayonu | 2600,0 | 2500,8 | 104,0% | 1964,97 | 2761,47 | 71,2% |
| Beyləqan rayonu | 9560,0 | 8550,0 | 111,8% | 21724,22 | 15687,81 | 138,5% |
| Bərdə rayonu | 9630,0 | 8518,5 | 113,0% | 25334,37 | 22379,85 | 113,2% |
| Biləsuvar rayonu | 12000,0 | 11351,8 | 105,7% | 22433,15 | 24762,05 | 90,6% |
| Cəlilabad rayonu | 505,0 | 500,0 | 101,0% | 1387,32 | 1000,35 | 138,7% |
| Füzuli rayonu | 2100,0 | 2050,0 | 102,4% | 2144,99 | 2126,13 | 100,9% |
| Goranboy rayonu | 5000,0 | 5000,0 | 100,0% | 9127,78 | 6953 | 131,3% |
| Hacıqabul rayonu | 1300,0 | 1203,9 | 108,0% | 1170,00 | 974,93 | 120,0% |
| İmişli rayonu | 13645,0 | 15641,5 | 87,2% | 18505,18 | 14564,86 | 127,1% |
| Kürdəmir rayonu | 5030,0 | 4027,0 | 124,9% | 6666,21 | 4971,37 | 134,1% |
| Neftçala rayonu | 7000,0 | 11111,0 | 63,0% | 10083,50 | 9052,02 | 111,4% |
| Saatlı rayonu | 15815,0 | 17220,0 | 91,8% | 30366,22 | 25748,3 | 117,9% |
| Sabirabad rayonu | 13055,0 | 15055,0 | 86,7% | 17194,94 | 18148,76 | 94,7% |
| Salyan rayonu | 7055,0 | 7052,4 | 100,0% | 10335,23 | 9271,91 | 111,5% |
| Samux rayonu | 400,0 | 53,0 | 7,5 dəfə | 922,60 | 46,47 | 19,9 dəfə |
| Tərtər rayonu | 3300,0 | 3123,0 | 105,7% | 8196,50 | 8419,1 | 97,4% |
| Ucar rayonu | 2500,0 | 2500,0 | 100,0% | 1708,76 | 2315,33 | 73,8% |
| Yevlax şəhəri | 2500,0 | 2168,0 | 115,3% | 5278,14 | 3406,86 | 1,5 dəfə |
| Zərdab rayonu | 3232,0 | 3232,3 | 100,0% | 4921,59 | 4188,69 | 117,5% |

**Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi**

## Mingəçevir Şəhər Yaşıllaşdırma və Sanitar Təmizlik İdarəsi mal-materialların satınalınması ilə əlaqədar

## AÇIQ TENDER ELAN EDİR

**Tender 1 (bir) lot üzrə keçirilir.**

**Lot-1.** Çöl süpürgəsi, ot toxumu, ağac tingləri, bəzək kolları, gül-çiçəklərin, digər mal-materialların və ehtiyat hissələrinin satınalınması

İşlərin görülməsi müddəti bir ildir.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderlə əlaqədar məlumat almaq üçün maraqlananlar əlaqələndirici şəxsə müraciət edə bilərlər

**Əlaqələndirici şəxs: Kərimova Sevil**

**Telefon: (024) 27-5-39-41**

**Ünvan: Mingəçevir şəhəri 20 Yanvar küçəsi 174**

Maraqlananlar əsas şərtlər toplusunu aşağıdakı məbləğdə iştirak haqqını köçürdükdən sonra yuxarıdakı ünvandan ala bilərlər.

**İştirak haqqı: lot-1 - 120 manat**

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər.

*Təşkilat: Mingəçevir şəhər Yaşıllaşdırma və Sanitar Təmizlik İdarəsi*
*Hesab: AZ21AİİB33010019442900322129*
*VÖEN: 2700112701*
*Bank: Mingəcevir Kapital bankı*
*Kodu: 200297*
*VÖEN: 9900003611*
*Müxbir hesab:*
*AZ37NABZ01350100000000001944*
*S.W.İ.F.T. BİK AİİBAZ2X*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün 07 fevral 2019-cu il saat 11:00-dək aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*-iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*-iştirakçının son bir ildə maliyyə vəziyyəti haqqında bank arayışı;*
*-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*-müvafiq işlər üzrə mənşə və uyğunluq sertifikatları;*
*-vergilərə və digər icbari ödənişlərə dair borcların olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təşdiq olunmuş maliyyə hesabatının surəti*
*-işləri yerinə yetirmək üçün potensial imkanları haqqında məlumat.*

İddiaçılar tender təkilfini 1% bank təminatı ilə 21 fevral 2019-cu il saat 11:00-a qədər yuxarıda göstərilən ünvava təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Tender təklifi açıldığı gündən ən azı 30 bank günü qüvvədə olmalıdır.

Tender zərfləri 22 fevral 2019-cu il saat 14:00-da Yaşıllaşdırma və Sanitar Təmizlik İdarəsində açılacaqdır.

Əlavə məlumatları əlaqələndirici şəxs S.Kərimovadan əldə etmək olar.

İddiaçıların səlahiyyətli nümayəndələri açılışda iştirak edə bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir.

**Tender Komissiyası.**

---

AZƏRBAYCAN RESPUBLİKASI ƏDLİYYƏ NAZİRLİYİNİN QEYDİYYAT VƏ NOTARİAT BAŞ İDARƏSİ

AÇIQ TENDER ELAN EDİR

Tender predmeti - 2019-cu ildə respublikanın qeydiyyat şöbələrində, yerli icra hakimiyyətlərinin nümayəndəliklərində və Xarici İşlər Nazirliyinin xaricdəki konsulluq idarələrində istifadə edilməsi üçün ciddi hesabat sənədləri olan vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı haqqında şəhadətnamələrin, eləcə də dövlət notariat kontorlarında istifadəsi nəzərdə tutulan xüsusi növ etibarnamə, müqavilə və digər blankların çap olunması üzrə işlərin satınalması

Malların, işlərin və xidmətlərin təchiz olunma müddəti - 2019-cu il ərzində.

Tender iştirakçıları öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etməlidirlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 1000 manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Azadlıq prospekti 72 ünvanından (əlaqələndirici şəxs: Axundov Elnur Camal oğlu telefon: 404-42-03, faks 441-02-36) ala bilərlər.

Tenderdə iştirak haqqı bütün hallarda geri qaytarılmır.

Ədliyyə Nazirliyinin Qeydiyyat və notariat baş idarəsi

*Hesab: AZ61CTRE00000000000002088403*
*VÖEN: 1300498771*
*Bank adı: Dövlət Xəzinədarlıq Agentliyi*
*Kodu: 210005*
*VÖEN: 1401555071*
*Müxbir hesab:*
*AZ41NABZ01360100000000003944*
*S.W.İ.F.T.BİK: CTREAZ 22*
*Büdcə təsnifatının kodu: 142340*
*Büdcə səviyyəsinin kodu: 7*

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü ərzində qüvvədə olmalıdır);*
*- tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü ərzində qüvvədə olmalıdır);*
*- Azərbaycan Respublikasında vergilər və digər icbari ödənişlər üzrə vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq dövlət orqanının arayışı;*
*- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi (hüquqi şəxslər üçün), qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*- müvafiq mallar üzrə uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanunun tələblərinə uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi, bank təminatı istisna olmaqla) 11 fevral 2019-cu il saat 17:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 18 fevral 2019-cu il saat 17:00-a qədər Bakı şəhəri, Azadlıq prospekti 72, Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Qeydiyyat və notariat baş idarəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri Bakı şəhəri, Ədliyyə Nazirliyi Qeydiyyat və notariat baş idarəsində 20 fevral 2019-cu il tarixdə saat 11:00-da açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri komissiyanın iclasında iştirak edə bilərlər.

---

# "MƏNİM KİMİ SEVƏ BİLSƏN"



Təqvim ilinin ilk günündə dünyaya gəlib. Həm də ömrünün 60 ilini yaşayıb. Ona ünvanlanan təbriklər, haqqında yazılanlar çox oldu. Hamısını oxudum. Hər dəfə də "Niyə mən yazmıram?" düşündüm. Axı mənim də sözüm var. Mən də onu tərifləmək, tərifləmək, tərifləmək istəyirəm. Əbülfət Mədətoğlunu tərifləməyə nə var ki?! Hər gözəl sözə layiqdi. Mədətoğlunun özünə yazdığı məktubunu, ya özünə ünvanladığı "Altmışı aşırdım, onun 28-i mənə güc gəldi" yazısını oxuyandan sonra ürəyimdən keçənlərin bir qismini də olsa, demək istədim. Mədətoğlu yazır:

"Yəqin sizdə də belədi, yola saldığımız və yaxud arxada qalan hər şey üçün bir qəribsəmək hissi yaşayırıq. Yəni mən ömrümün, demək olar ki, son illərində daha çox qəribsəməyə başlamışam. Xüsusilə doğulduğum torpaq üçün... dünyasını dəyişmiş dostlarım, doğmalarım üçün... görə bilmədiyim yerlər üçün... əlaqə qura bilmədiyim həmfikirlərim üçün... bir də təbii ki, itirdiyim zaman üçün... Bax, bu mənada dostlardan, doğmalardan, oxuculardan 60 yaşımla bağlı eşitdiyim, aldığım, oxuduğum bütün xoş sözlər məni bir az da çox kövrəldib, məni bir az da çox qəribliyə çəkibdir...".

Və düşündüm ki, Niyə qəribdi? Bu qədər dostun - tanışın, sevənlərin arasında niyə qəribdi? Ömrünün 60-nı aşıran bir şair, bir dost, bir ata, bir baba - dəyərli insan niyə qəribdi? Cavabı da özü verib:

"60 ilin düz 28 ilini ağrı-acıyla, xatirələrlə, həsrətlə, nisgillə, necə deyərlər, tikan üstündə yaşadım, daha doğrusu, mövcud oldum. Çünki gözümü açanda gördüklərimin hamısından uzaq düşdüm. Özü də könüllü yox, silah gücünə... yaralarımdan qan axa-axa... Və indi bütün bunları düşünə-düşünə 60-ın necə gəlib keçdiyindən xəbərsizəm deyə bilmirəm. Çünki dediyim həmin zaman kəsiyi səhəri mənə kipriklərimlə açmaq, gecəni dağı arana daşımaq işgəncəsi yaşadıbdı. Hətta elə anlar olub ki, "bu gün sondu, bu gün hər şey bitər!" - deyə düşünmüşəm. Lakin Tanrı iradəsi hər şeydən və hər kəsdən güclü olduğuna görə, mənim çıxardığım qərar, mənim inandığım nəticə havada qalıbdı...

Və mən indi bu 60 yaşın notları üzərində nə qədər özümü kökləsəm də 60-ın içərisindəki 28 daha güclüdür. Onun səsi daha bərk çıxır...".

Kədərlidi... Yazılarında həsrət, ayrılıq, sevgi - hər birimizin yaşadığı duyğular var. İçimizi qovruldan Vətən dərdi var. O elə içdən ağrıyır ki, onunla birlikdə ağrımaya bilmirsən. Onun ruhu elə ağlayır ki, ona qoşulub hönkürürsən. Bilmirəm, dərd onun sözünə biçilib, ya söz dərdinə... Əslində şeir kədərdən yaranır. Bəlkə ona görə ki, bir damcı sevinc tapmaq üçün bir ümman ağrıdan, acıdan keçirik?.. Şeir baxdığımız yox, gördüyümüzdü. Şeir gözündən içinə keçənləri, yaşamı, insanları, həyatı görməkdi, olduğu kimi görməkdi, anlamaqdı. Və təəssüf ki, gördükcə, anladıqca daha çox kədərlənərsən. "Nədənsə kədər mənə daha doğmadı", "nəyi itirəcəm qorxam təkliyimdən savayı" deyərsən. Əslində hər kəsin öz təkliyi var, hər kəs yalnız olur milyonların içində. Yaşayançün, anlayançün bu, doğaldı, təbiidi, qaçılmazdı. Bu zaman özünlə olursan, təkcə özün olursan:

*Sığınıb bir otağın küncünə*
*susmuşam...özümdən başqa heç*
*kimlə danışmıram.*
*düşünməyin ki, kimdənsə, ya da*
*dünyadan küsmüşəm...*
*yox-sadəcə indi daha çox*
*ətrafla anlaşmıram və odur ki,*
*susaraq gözləyirəm...*

Və bu elə poeziyadı. Dərdi olmayanmı var? Amma şair deyil hamı desin ki: "qurtulmaq çətindi dərddən, acıdan, hər addım başında üzünə durur", ya da

Ovub qoydun ortaya, dərdimi sünbül kimi.

Fırlanıram başına havalı bülbül kimi.

Həyatı ancaq özü üçün yaşayan, məsələn, aclığı yalnız özü ac qalanda yaşayan və bu aclıq üzündən hər kəsi, hər şeyi tapdamağı bacaran heç vaxt şeir, ya nəsə maraqlı bir hekayə yaza bilməz. Bu, heç onun ağlına da gəlməz. Bunu insanın kim olduğunu anlayan edə bilər. Çünki onu "gözlərini yummağa qoymayan bir qəhər var" həmişə. Çünki "dərd ilan tək dolanır yaralarının üstə"

*Dan yeri sökülədən*
*oturmuşam dərdlərin*
*Qapısının ağzında...*
*Baxdıqca izlərini görürəm*
*əritdiyim illərin hamısında.*

